# Türk-hun yaddaşının AVROPA OYANIŞI

**2024-cü ilin əvvəlində Azərbaycan Prezidenti İlham Əliyevin dost-qardaş Macarıstana səfəri iki ölkə arasında yalnız ikitərəfli diplomatik bağların deyil, həm də daha geniş anlamda Avrasiya məkanında formalaşan yeni geosiyasi sinerjinin bariz örnəyiydi; elə bu il, bu gün də örnəkdir. Həmin səfər və onun fonunda verilmiş açıqlamalar, Güney Qafqazla Mərkəzi Avropa arasında çoxşaxəli işbirliyi platformunun möhkəmləndiyini və bu sürəcin mərkəzində strateji rasionalizmlə yanaşı, tarixi yaddaşın da önəmli rol oynadığını göstərir.**

Geosiyasi kontekstdə dəyərləndirsək, bu, çoxqütblü sistemdə mövqe dəqiqləşdirilməsidir.

Son illərdə beynəlxalq münasibətlər sistemində müşahidə olunan transformasiyalar - ABŞ-Çin qütbləşməsi, Rusiya-Ukrayna müharibəsinin yaratdığı gərginliklər və Avropa Birliyinin (AB) içində (necə deyərlər) parçalanmış geosiyasi prioritetlər - Azərbaycan və Macarıstan kimi dövlətləri öz milli maraqlarını daha sərbəst və düşünülmüş şəkildə formalaşdırmağa vadar edir.

Macarıstanın AB içində müstəqil dış siyasət aparması, özəlliklə enerji, təhlükəsizlik və miqrasiya sahələrində fərqli yanaşmalar nümayiş etdirməsi, onu qeyri-formal suverenlik örnəyi kimi irəli çıxarır. Bu fon üzərində Prezident İlham Əliyevin, Macarıstanı AB içində müstəqil siyasət yürüdən nadir ölkə kimi dəyərləndirməsi, iki ölkə arasında ideya yaxınlığının diplomatik ifadəsi sayıla bilər.

Azərbaycan da analoji olaraq, özünün neytral, balanslaşdırılmış dış siyasəti vasitəsilə Batı-Rusiya-Çin üçbucağında çevik manevr qabiliyyətini qoruyub saxlayır. Bu siyasi oxşarlıq, Azərbaycan-Macarıstan münasibətlərinə geosiyasi uyğunluq elementi əlavə edir.

Enerji diplomatiyasına gəldikdə, burada, söhbət, yalnız ixracatdan deyil, həm də siyasi kapitalın formalaşmasından gedir.

Azərbaycanın təbii qaz ixracını Macarıstana və ümumilikdə Avropaya yönəltməsi, təkcə iqtisadi gəlir məqsədi daşımır; bu, həm də ölkənin bölgəsəl və qlobal enerji bazarında siyasi çəkisinin artırılması strategiyasının bir hissəsidir.

Avropa Komissiyasının Azərbaycanı "Pan-Avropa qaz təchizatçısı" kimi tanıması, enerji təhlükəsizliyi sahəsində Bakı-Budapeşt xəttinin təkamülünü sürətləndirmiş olur. Eyni zamanda, Macarıstan şirkətlərinin "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" layihələrində iştirakı enerji sahəsində qarşılıqlı yatırım güvəninin rəmzinə çevrilib.

Bura yaşıl enerji üzrə işbirliyi də əlavə olunur. Azərbaycanın 6 min meqavatlıq bərpaolunan enerji planı və bu sahədə Macarıstanla işbirliyi perspektivi göstərir ki, rəsmi Bakı öz enerji diplomatiyasını gələcəyin texnologiyalarına uyğunlaşdırır; bax, bu transformasiyada Bakı Budapeşti strateji tərəfdaş kimi seçir.

Özünə haqlı olaraq, Hunqariya deyən Macarıstanla bizi ortaq yaddaş və ortaq gələcəklə bağlı (inam kimi!) ümidlər birləşdirir.

Macarıstanın Türk Dövlətləri Təşkilatında (TDT) fəal iştirakı, onu sırf müşahidəçi statusundan daha artıq, mədəni-siyasi bağlarla üzv kimi təqdim edir. Bu, çox yaxşıdır, ürəyimizcədir! Bu, Macarıstanın Avropa içindəki "türk-hun köklərinə bağlı" milli kimliyini, özünəxaslığını qorumaq istəyinin diplomatik formasıdır.

TDT-nin Şuşada keçirilmiş qeyriformal Zirvə görüşünün davamı olaraq indi Budapeştdə təşkil edilən ikinci görüş, Azərbaycanla (ümumən Türk dünyası ilə!) Macarıstan arasında mədəni-tarixi bağlılıqların institusional siyasi formata keçməsinin göstəricisidir. Prezident Əliyevin vurğuladığı kimi "Macarıstan öz tarixi köklərinə bağlıdır"; bax, bu, bir tərəfdən Budapeştin Türk dünyası ilə doğmalığını, səmimi yaxınlığını, digər tərəfdən isə Azərbaycanın bu yaxınlığa verdiyi strateji dəyəri əks etdirir.

Türkologiya baxımından Macar-Azərbaycan bağları, sadəcə siyasi deyil, akademik və mədəni inteqrasiyanı da çevrələyir. Ortaq tarixi köklər üzərində qurulan bu yaxınlıq, çağdaş ortamda ideoloji yox, gerçəkçi siyasət və iqtisadi çıxarların vəhdətində təcallaedir.

Azərbaycan Prezidentinin Macarıstana işgüzar səfərindəki gündəkiyində də Sülh gündəliyi və hüquqi üstünlük konsepti vardır.

Azərbaycanın son müharibədən sonra Sülh Anlaşmasının müəllifi kimi təşəbbüskarlıq nümayiş etdirməsi və bu təkliflərin Ermənistan tərəfindən qəbul edilməsi, Azərbaycanın beynəlxalq hüququ əsas istinadgah kimi istifadə etdiyini göstərir. Bu, Prezident Əliyevin Macarıstanda verdiyi açıqlamalarda da öz əksini tapır - bəli, "Biz BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən öz torpaqlarımızı azad etdik".

Bu hüquqi arqumentasiyanın Macarıstan kimi Avropa hüquq mədəniyyətinə malik bir dövlət tərəfindən qəbul olunması və sayğıyla qarşılanması, Azərbaycanın bölgəsəl qarşıdurmaları beynəlxalq hüquq çərçivəsində çözmə strategiyasının təsirliliyini təsdiqləyir.



Sonuc olaraq, iki suverenliyin ortaq platformuna yığcam şəkildə vurğu edək.

Azərbaycan və Macarıstan bağları sadəcə ikitərəfli işbirliyi deyil, XXI yüzil diplomatiyasının yeni modelinin - mədəni yaddaşa, strateji maraqlara və hüquqi əsaslara söykənən çoxşaxəli ortaq platformunun örnəyidir.

Bu münasibətlər ana materik üzrə - Avrasiya məkanında yeni güc mərkəzlərinin formalaşmaqda olduğunu və bu mərkəzlərin klassik hegemon güclərdən fərqli - suverenlik, tarixi irs və enerjiyə dayalı səmimi işbirliyi modelini əsas aldığını göstərir.

Azərbaycan və Macarıstan bu modelin önəmli memarlarıdır. - Beynəlxalq siyasi arxitekturanın indiki ölgüsüz, mizansız dönəmində belə model bəşəri siqlət, səciyyə daşıyır.

DÖVLƏTİMİZ ZAVAL GÖRMƏSİN!

***Əkbər QOŞALI***